# Gəncədə "Şuşa təsviri sənətdə" kitabının təqdimatı keçirilib

**Gəncədəki Məhsəti Gəncəvi Mərkəzində "Şuşa təsviri sənətdə" kitabının təqdimatı keçirilmişdir.**

Tədbirdə şəhər icra hakimiyyətinin əməkdaşları, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin nümayəndələri, həmçinin Azərbaycan Rəssamlar İttifaqının üzvləri iştirak etmişlər.

Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra "Şuşa təsviri sənətdə" kitabı ilə bağlı ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Şuşa təkcə Azərbaycan tarixinin və musiqisinin beşiyi deyil, o, həm də təsviri sənətin ən mühüm sahələrini özündə əks etdirir. Şəhərin möhtəşəm təbiəti - dağları, dərələri, çayları, həmçinin qədim qala divarları, məscidlər, məhəllələr və digər memarlıq abidələri rəssamlar üçün hər zaman ilham mənbəyi olmuşdur. 20-ci əsrin əvvəllərindən etibarən bir çox azərbaycanlı rəssamlar Şuşanın təsvirinə müraciət etmişlər.

Tədbirin sonunda Azərbaycan Rəssamlar İttifaqına üzv seçilmiş gənc rəssamlara vəsiqələr tədqim olunmuşdur.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 28 avqust, №181.- S.9.